# Virtouzun evindən reportaj

Düşüncə... İnsanı uzaq məsafələrə daşıya bilən düşüncə...

Düşüncə... zamanın sərhədlərini yox edən düşüncə...

Yazılan əsər, çəkilən rəsm, bəstələnən musiqi, əslində, yaradıcı insanın düşüncəsidir. Onu uzaqlara daşıyan və ölməz edən də budur. O, özü də daha azad, hür bir "Düşüncə"dir. Vaqif Mustafazadənin "Düşüncə"si kimi... Bu yazını da məhz o kompozisiyanın sədaları altında yazıram...

Vaqif Mustafazadənin ev muzeyi İçərişəhərdə yerləşir. Vaxtilə qonşularıyla bərabər yaşadıqları, 4 otaqdan ibarət mənzil Polad Bülbüloğlunun təşəbbüsü ilə bəstəkarın ailəsinə verilib. Muzey 2004-cü ildə təmir olunaraq tam şəkildə muzey kimi fəaliyyət göstərir. Vaqif burada uzun illər anası Zivər xanımla birgə yaşayıb. Otaqlarda onların mebellərini, müxtəlif əşyalarını və fotoşəkillərini görmək olar. Lakin onu da qeyd etmək lazımdır ki, Vaqif Mustafazadə sonradan həyat yoldaşı və qızıyla birgə indiki Nizami küçəsindəki evinə köçdüyünə görə bəzi əşyalarını da özüylə oraya aparıb. Həmin əşyalar indiyə qədər musiqiçinin həyat yoldaşı Elza xanımdadır. Bu səbəbdən ev muzeyində əşyalardan çox fotoşəkillər yer alır. Bələdçi xanım da daha çox şəkillərin və ordakı insanların xatirələrini danışmaqla kifayətlənir. Məncə, bu evi Xatirələr muzeyi adlandırmaq olar.

İlk olaraq diqqətimi otağın küncünə qoyulmuş radioqəbuledici çəkir. Bələdçi xanım məlumat verməyə başlayır. Bu o radioqəbuledicidir ki, Vaqif bunun vasitəsilə yarım saatlıq "Amerikanın səsi" verilişinə, eləcə də dünyanın məşhur cazmenlərinə qulaq asır, sonradan özüyçün improvizasiyalar edirdi. Əslində, onun musiqiyə olan sevgisi irsi idi və uşaq yaşlarından özünü büruzə vermişdi. Belə ki, hərbi həkim olmasına baxmayaraq, Vaqifin atası kamançada və tarda çox gözəl ifa edərdi. Anası Zivər xanım isə Azərbaycanın görkəmli bəstəkarı Üzeyir Hacıbəyovun ilk qadın tələbəsi idi. Elə bu səbəbdəndir ki, oğlunun musiqiyə olan həvəsini və istedadını çox tez aşkarlayan Zivər xanım onu 1 nömrəli musiqi məktəbinə qoyur. Vaqif bu zamanlar məşhur tar ifaçısı Mirmənsur Mənsurovdan muğamı öyrənir. Musiqi məktəbini bitirdikdən sonra Asəf Zeynallıya daxil olan Vaqif Mustafazadə 16 yaşından əmək fəaliyyətinə başlayır. Eləcə də o, 16 yaşında ikən Mendelsonun konsertində fortepianoda ifa edir. Bu konsert zamanı Vaqifi dinləyən məşhur dirijorumuz Niyazi onun qiymətini ilk verənlərdən olmuşdur. Niyazi tam əminliklə "Vaqifin böyük gələcəyi olacaq" deyir. Daha sonra Konservatoriyada təhsil alan bəstəkar buranı bitirdikdən sonra 1965-ci ildə Tblisiyə "Orero" ansamblının rəhbəri kimi dəvət olunur. Təklifi qəbul edən Vaqif burada peşəkar cazla məşğul olmağa və müxtəlif festivallarda iştirak etməyə başlayır. Bu faktı qeyd etmək lazımdır ki, 1966-67-ci ildə Tallində keçirilən Beynəlxalq Caz festivalında Vaqif Gürcüstanı təmsil edirdi. Azərbaycandan isə bu festivala Rafiq Babayev getmişdi. Festivalın qalibi Gürcüstan olur, yəni Vaqif Mustafazadə. Bundan xəbər tutan Rauf Hacıyev onu Azərbaycana dəvət edir və 1969-cu ildə Bakıda keçirilən caz festivalında Vaqif Mustafazadə qalib gəlir. Həmin festivalda Vaqif Mustafazadə Elza xanım tərəfindən nota alınmış 76 kompozisiyanı ifa edərkən bilmədən "Bayatı-Şiraz" muğamına keçir, lakin özünü itirməyərək pianoda muğamı ifa etməyə davam edir. Bu sintez tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanır. Konsertdən sonra böyük həyəcan və stress keçirən Vaqif Mustafazadə yenilik edə biləcəyini anlayır. Beləliklə, o, Amerika qaradərililərinin musiqisiylə Azərbaycan muğamını sintez edərək yeni bir ənənəyə imza atır. Məhz bu səbəbdən Vaqif Mustafazadəni ən gözəl lirik pianoçu adlandırırlar...



Piano demişkən, digər diqqətçəkən əşyalardan biri də qonaq otağının girişində qoyulmuş pianodur. Bu pianonun klavişlərinin üzərində bəstəkarın qızı Əzizənin uşaq vaxtı yapışdırdığı saqqızın izlərini də görmək olar. Əslində, bu pianonun yerində ağ bir royal da ola bilərdi. O royal ki, Vaqif Mustafazadə musiqi yarışmasında qazanmışdı. Belə ki, o, 1978-ci ildə Fransada keçirilən bir musiqi yarışmasına "Əzizəni gözləyərkən" kompozisiyası ilə qatılır və burada qalib olaraq ağ bir royal qazanır. Lakin, vəfat etdiyinə görə o bu mükafatdan və qalibiyyətdən xəbərdar ola bilmir.

Qonaq otağının çox rahat və o dövrə görə müasir bir interyeri var. Bələdçi xanımın dediyinə görə burada tez-tez qonaqlıqlar, məclislər keçirilərmiş. Vaqif və anası Zivər xanım çox qonaqpərvər insan olublar. Onların evinə məşhur musiqiçilər, şairlər, müğənnilər gəlib gedərmiş. Bələdçi xanım belə bir maraqlı faktı da qeyd edir ki, Cavan Zeynallı Vaqif Mustafazadənin yaradıcılığını çox sevirdi və onunla tanış olmaq istəyirdi. Lakin yenə də ondan çəkinirdi. Bir gün o özünü jurnalist kimi təqdim edir, belə onların evinə gəlir. Sonradan onlar yaxın dosta çevrilər.

Otaqdakı digər əşyalar demək olar ki, divardan asılmış fotoşəkillərdir. Burada onun yaxınlarının, birinci evliliyindən olan qızı Lalənin, həyat yoldaşı Elzanın, Əzizənin, anası Zivər xanımın şəkilləri nümayiş olunur. Divarda, həmçinin Vaqif dünyasını dəyişdikdən sonra anası Zivər xanımın oğluna yazdığı şeiri də görmək olar:

***Nə idi ilahi sən ey Yaradan!***
***Bir xoş gün görməyə vermədin imkan.***
***Min cür əziyyətlə canımı aldın***
***Bəs deyilmi sən məni məzara saldın?***
***Ey məzar! Qara torpaq, onu əziz saxla!***
***Odur gözümün nuru***
***Ey məzar, əfsus...***

***Əziz anasından əbədi abidə. 16.12.1979.***

Vaqif Mustafazadə 1979-cu ildə Daşkənddə konsert zamanı infarkt keçirmiş, xəstəxanaya çatdırılarkən yolda dünyasını dəyişmişdir. Ölümündən əvvəl o yeni yazdığı əsərlərini bəstəkar Tofiq Quliyevə göndərir və dinləməsini xahiş edir. Lakin Tofiq Quliyev vaxt tapıb dinləyə bilmədiyi üçün fikrini Vaqifə deyə bilmir. Vaqif dünyasını dəyişdikdən sonra Tofiq Quliyev bu əsərləri dinləyir və vaxtında müsbət rəyini ona deyə bilmədiyinə görə peşmanlıq hissi keçirir.

Qeyd edək ki, Vaqif ilk infarktı 19 yaşında ikən keçirmişdi və həkimlər ona həddindən artıq həyəcanlanmağı qadağan etmişdilər. Lakin o, özünü gözləmirdi piano arxasında keçən kimi bütün enerjisini musiqiyə həsr edirdi. Nəticədə isə istedadlı bəstəkar, cazmen çox gənc yaşda musiqisevərləri gözüyaşlı qoydu.

Biz muzeydə olarkən Vaqif Mustafazadənin ev muzeyinə çoxlu ziyarətçilər gəlirdilər ki, onlardan çoxu xarici turistlər idi. Türklər demiş "qulaq müsafiri" olduğum bəzi söhbətlərindən onların Vaqifi çox yaxşı, hətta bəzi həmvətənlərimizdən də yaxşı tanıdıqlarının şahidi oldum...

**Hazırladı:**
**Cahan Seyidzadə**



